# Heydər Əliyev və Azərbaycan təhsili

(Əvvəli 1-ci səhifədə).

Ümumtəhsil məktəblərində şagirdlərə dərsliklərin pulsuz verilməsi də məhz Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə başlandı həmin dövürdə ən ciddi yeniliklərdən biri də yeni əlifbaya keçilməsi, latın qrafikalı əlifbanın tətbiqinin reallığa çevrilməsi oldu.

Ulu öndər Azərbaycanın ən çətin günlərində özünə məxsus qətiyyət, təmkinlik nümayiş etdirərək müstəqilliyimizi, milli dövlətçiliyimizi qoruyub saxladı. Heydər Əliyevin ideyaları, təməlini qoyduğu nəhəng quruculuq işləri onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirildi.

Ümumtəhsil sistemi sahəsində islahatlar uğurla davam etdirildi. Təhsil tarixində ilk dəfə olaraq inkişaf yönümlü Dövlət Proqramları təsdiq olunub uğurla həyata keçirilməyə başlandı.

Təhsil sahəsində aparılan genişmiqyaslı işlər, təhsil infrastrukturunun genişləndirilməsi məzmun islahatları üçün də zəmin yaratdı. 2006-ci ildə Nazirlər kabineti tərəfindən "Ümumi təhsilin Konsepsiyası (Milli kurikulum)" təsdiq edildi. Yeni məzmuna uyğun yeni dərsliklər hazırlandı. Azərbaycan təhsilində ilk dəfə olaraq milli və beynəlxalq qiymətləndirmə tədbirləri həyata keçirildi.

2009-cu ildə "Təhsil haqqında qanun"un qəbul edilməsi təhsil sisteminin fəaliyyəti üçün hüquqi baza yaratdı.

Respublikamızın bütün bölgələrində olduğu kimi təhsildə aparılan islahatlar Qəbələdə də öz əksini tapdı. Bu gün yeni məktəb binalarının tikintisi, onların əsaslı təmiri, maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzindədir.

Milli kurikulumun həyata keçirilməsi ilə bağlı müəllimlərin hazırlığına, onların pedaqoji ustalığının inkişafına xüsusi diqqət yetirilir. 2008-2012-ci illərdə I-IV siniflərdə işləyən ibtidai sinif müəllimləri ixtisasartırma kurslarından keçmiş, yeni təlim metodlarına yiyələnmişlər. Artıq ümumtəhsil məktəblərinin V siniflərində yeni təlim tədbiq olunur. 2012-ci ilin yay aylarında V siniflərdə dərs deyəcək 600-dən çox ixtisas müəllimləri Təhsil Nazirliyinin rayonda təşkil etdiyi təlim kurslarından keçmişlər.

2013-cü il ölkə Prezidenti tərəfindən İnformasiya və Kommunikasiya Texnologiyaları ili elan edilmişdir.

Artıq təhsilin informasiyalaşdırılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib.



Son dörd ildə Təhsil Nazirliyinin rayonumuzda təşkil etdiyi İKT kurslarından 2000 nəfərdən çox müəllim keçərək sertifikat almışdır.

Rayonun ümumtəhsil məktəblərində 481 kompüterdən istifadə olunur, 43 kompüter sinfi fəaliyyət göstərir, 17 məktəb surətli internet şəbəkəsinə qoşulmuşdur. Təhsilin inkişafı ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçmişdir.

Bu gün ölkə Prezidenti İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil son dövürlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilmişdir. Ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilmiş, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunmuşdur. Ən ucqar bölgələrdə belə yeni məktəb binaları tikilir, onların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülür.

Xüsusilə Heydər Əliyev fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək diqqət mərkəzindədir. Fond ölkədə məktəb tikintisində yaxından iştirak etməklə yanaşı, onların əyani vəsaitlər, şagirdlərin isə məktəb ləvazimatları ilə təmin olunmasında mühüm rol oynayır.

"Bu günkü gənclərin təhsilinə ölkədə böyük imkanlar açılır. Bizim məqsədimiz ölkəmizdə dünyada yüksək standartlara cavab verən təhsili təmin etməkdir"— deyən Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva təhsilimizə qayğını fondun fəaliyyətinin ən başlıca istiqamətinə çevirmişdir. Onun rəhbərliyi altında fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi, "Uşaq evləri və internat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" layihələri təhsil sahəsində mövcud problemlərin həllində, ölkə miqyasında müasir standartlara cavab verən təhsil komplekslərinin yaradılmasında, xüsusi qayğıya ehtiyacı olan uşaqlara kömək göstərilməsində, beynəlxalq əməkdaşlıq çərçivəsində, humanizm prinsiplərinə uyğun ayrı-ayrı ölkələrdə təhsilin inkişafına dəstək verilməsində çox böyük rol oynayır.

Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir.

"Təhsilin keyfiyyətinin artırılması çox vacib məsələdir. Uşaqlar bizim gələcəyimizdir. Onlar gərək bilikli, savadlı olsunlar,yaxşı oxusunlar ki, gələcəkdə həm özləri üçün həyatda layiqli yer tuta bilsinlər, eyni zamanda, ölkəmizin inkişafı üçün də fəal çalışsınlar". Ölkə Prezidentinin bu sözləri bu gün təhsil işçilərinin məsuliyyətini daha da artırır.

Artıq 2012-2013-cü tədris ili başa çatmaqdadır. Əvvəlki illərdə olduğu kimi, bu il də uğurlarımızın sayı çox olmuşdur. Müxtəlif nominasiyalı müsabiqələrdə, fənn olimpiadalarında, idman yarışlarında şagirdlərimiz uğurla çıxış etmişlər. Bu tədris ilində qazandığımız bütün nailiyyətlər ümumilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə bir töhfədir. Bütün təhsil işçiləri pedaqoji fəaliyyətləri ilə yanaşı rayonun ictimai həyatında da yaxından iştirak etmişlər.

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir, cəmiyyət təhsilsiz inkişaf edə bilməz". Ulu öndərin bu sözləri bütün müəllimlərimizin fəaliyyətinin məqsədinə çevrilmişdir. Əbədiyasar liderin dediyi kimi "Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır".

**Arifə BAYRAMOVA,**
**Qəbələ RTŞ-nin metodkabinetinin müdiri.**

---

# Azərbaycanın özü qədər əbədi

Azərbaycan xalqı tarixi bir hadisəni, müstəqil dövlətimizin memarı və qurucusu, azərbaycanlıların milli iftixarı, uşaqların, gənclərin yaşlıların böyük dostu, ümummilli lider Heydər Əliyevin anadan olmasinin 90-ci il dönümünü qeyd edir. Bu günlər Heydər Əliyevin vətən və millət qarşısında misilsiz xidmətlərini bir daha minnətdarlıq hissi ilə xatırlayırıq. Geniş zəkası, fitri uzaqgörənliyi, dəmir məntiqi, polad iradəsi ilə ətrafdakılardan daim fərqlənən Heydər Əliyev simasında Tanrı xalqımıza XX əsrdə əsl xilaskar bəxş etmişdir.

Dahi öndərin zəngin dövlətçilik təcrübəsi, siyasi irsi tariximizin ən mühüm və silinməz səhifələrini təmsil edir. Çünki xalqımız öz dövlətçiliyinin dünyəvi, demokratik hüquqi əsaslar üzərində bərqərar olunmasına ulu öndər Heydər Əliyevin qətiyyəti nəticəsində nail olmuşdur.

Ümummilli liderimiz müstəqil dövlətimizin hüquq sistemində ədliyyə orqanlarının rolunu dəfələrlə qeyd etmiş, onun mahiyyətcə təkmilləşdirilməsinə xidmət edən islahatlar həyata keçirmişdir.

1918-ci ildə yaradılan ədliyyə nazirliyi sovetlər dövründə dəfələrlə ləğv edilmişdir. Nazirliyin dövlət strukturu kimi təşəkkül tapması Heydər Əliyevin adı ilə bağlıdır. Ədliyyə Nazirliyi 1970-ci ildə yenidən yaradılmış, onun fəaliyyətini tənzimləyən müasir normativ sənədlər qəbul edilmiş, milli kadr hazırlığına xüsusi diqqət yetirilmişdir.

Azərbaycan ədliyyəsinin inkişafının əsaslı dönüş mərhələsi ümummilli liderimizin ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf edir.

Notariat və qeydiyyat orqanlarının iqtisadi və hüquqi proseslərin həyata keşirilməsində mühüm əhəmiyyəti nəzərə alınaraq bu orqanlarda da əsaslı islahatların həyata keçirilməsi üçün hüquqi baza yaradılmış, ailə məcəlləsi, notariat haqqında qanun və digər qanunvericilik aktları qəbul edilmişdir. Ulu öndər Heydər Əliyevin 6 mart 2000-ci il tarixli fərmanı ilə qeydiyyat orqanlarının idarəçilik sisteminin təkmilləşdirilməsi ilə bağlı mühüm qərar qəbul olunmuş, bu orqanların ikili tabeçiliyinə son qoyularaq, onlar ədliyyə nazirliyinin strukturuna daxil edilmişdir.

Bütün sahələrdə əhalinin rifahını, ona göstərilən hüquqi xidmətin keyfiyyətinin yaxşılaşdırılması məsələlərini daim diqqət mərkəzində saxlayan, hər bir fərdin maraq və mənafelərinin təmin olunmasını önə çəkən ulu öndərin «Azərbaycan Respublikasında vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı işinin təkmilləşdirilməsi haqqında» 31 iyul 2002-ci il tarixli fərmanı ilə bu sahədə müəyyən səlahiyyətlər yerli icra orqanlarına verilmişdir.

Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədi ilə Heydər Əliyevin 11 noyabr 2001-ci il tarixli sərəncamı ilə 22 noyabr–Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən olunmuşdur. Bu yüksək etimad və diqqət hər bir ədliyyə işçisi tərəfindən dərin minnətdarlıq və iftixar hissi ilə qarşılanmışdır.

Heydər Əliyev siyasətini uğurla, yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini gündən-günə möhkəmləndirir, milli mənafelərimizi cəsarətlə və uğurla müdafiə edir, qloballaşmanın doğurduğu əngəlləri və maneələri qətiyyətlə dəf edir. Beləliklə Azərbaycan xalqı Heydər Əliyev yolu ilə öz parlaq gələcəyinə doğru inmala, sürətlə irəliləyir.

Qüdrətli dövlət xadimi Heydər Əliyevin 90 illik yubileyi tək azərbaycanlıların deyil, bütün türk dünyasının əlamətdar bayramıdır. Ulu öndərin işıqlı xatirəsi bizim üçün əziz və unudulmazdır.

**Zinyət BAĞIROVA,**
**Qəbələ Rayon Qeydiyyat Şöbəsinin müdiri.**